XACƏ YUSİF HƏMƏDANİ

# *HƏYAT NƏDİR*

Tərcüməçi:
Rahil Nəcəfov

qanun nəşriyyatı

# خواجه یوسف همدانی

# رتبة الحیات

Azərbaycan mədəniyyətinin incilərindən sayılan Yusif Həmədaninin “Rütbətül-həyat” əsəri bir neçə xarici dildə nəşr olunsa da, indiyə kimi doğma dilimizdə çap olunmayıb. Əsər təsəvvüfə və sufizm fəlsəfəsinə aid olub, çox qiymətli məsələləri özündə ehtiva edir.

Əsərin müəllifi Xacə Yusif Həmədani ömrünü Mərv və Heratda mürid yetişdirməklə, irşad ilə keçirib. “Rütbətül-həyat”, “Kəşf ”, “Risalə dər ədəbi-təriqət”, “Risalə fi ənnəl-qövnə musahharun lil-insan”, “Risalə dər əxlaq vəl-munacat” adlı əsərlərin müəllifidir. O, zəmanəsinin məşhurlarından olub, arif, alim, ədib və mahir qələm sahibi kimi İslam bölgəsi fəlsəfəsinin daha da zənginləşməsinə xidmət edib. O, Nəqşibəndiyyə təriqətinin və Orta Asiya ilə Anadolu təsəvvüfünün təməlini qoyanlardan hesab olunur. Əsərləri tarixin səhifələrindən düşməyən bir şəxsiyyətdir.

خواجه یوسف همدانی رتبة آلحیات
**Xacə Yusif Həmədani** **HƏYAT NƏDİR**
Bakı, Qanun Nəşriyyatı, 2024, 176 səh.

Janr: non-fiction/fəlsəfə
Yaş qrupu: 18+
Ölçü:120x185 mm
Cild: qalın
Çapa imzalandı: 20.01.2023

Naşir: Şahbaz Xuduoğlu
Fars dilində əsərin tərtibçisi və girişin müəllifi: Dr. Əmin Riyahi
Tərcüməçi: Rahil Nəcəfov
*Fəlsəfə üzrə fəlsəfə doktoru*
Korrektor: Əyyar Tahir
Texniki redaktor: Aygül Yelmarlı
Mətn dizaynı: Mürsəl Qasımov
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-530-4

© Qanun Nəşriyyatı, 2024

## Mündəricat


Ön söz ........................................................................7

Xacə Yusif Həmədani və Rütbətül-həyat ..........9

Ustad Xacə Yusif Həmədaninin həyatı..............12

Yusif Həmədaninin şeyxləri ..............................17

Yusif Həmədaninin müridləri ............................21

Təsəvvüf qaynaqlarında Xacə Yusif Həmədani .23

Yusif Həmədaninin əsərləri və fikirləri .............31

"Rütbətül-həyat" əsəri .......................................37

Ön sözə əlavə və Məqaməti-Yusif Həmədani haqqında ..................................................................42

I fəsil: Məqamət-i Yusif Həmədani ....................52

II fəsil: Rütbətül-həyat......................................77

III fəsil: Təriqət ədəbi .......................................141

IV fəsil: İnsan və kainat....................................149

Əsərdəki terminlərin izahı ................................154

## ÖN SÖZ

Hicri V (XI) və VI (XII) əsrin öndə gələn təsəvvüf alimlərindən sayılan Xacə Yusif Həmədani həm şəxsiyyəti, həm də Əhməd Yəsəvi və Əbdülxaliq Gücdüvani kimi iki böyük təriqət qurucusunun şeyxi olması etibarı ilə özünəməxsus üstün keyfiyyətlərə malik bir insan olmuşdur. Bu səbəbdən Xacəgan və Yəsəviyyə təriqətlərinin tarixi köklərini və düşüncə sistemlərini tədqiq etmək istəyənlər hər şeydən əvvəl onların birləşdiyi ortaq nöqtəni, yəni Yusif Həmədanini tanımalı və əsərləri ilə tanış olmalıdırlar. Bəzi tədqiqatçı alimlər Əhməd Yəsəvi ilə Yusif Həmədaninin də heterodoks sufilərdən olması görüşünü müdafiə edirlər. Lakin qeyd olunan fikir və iddia nəinki hər hansı bir tarixi mənbəyə istinad etmir, hətta yeni tədqiqatlar zamanı ortaya çıxan sənədlər tədricən bu iddianın əskini sübut edir. Bunlardan biri də məhz tərcüməsini təqdim etdiyimiz əsərdir. Bu tərcümə əsasən Yusif Həməda-

ninin üç əsərini əhatə edir. Birincisi və eyni zamanda tərcümənin böyük bir hissəsini təşkil edən risalə "**Rütbətül-həyat**" əsəridir. Sufi baxışı ilə həyatı süzgəcdən keçirən bu əsər M.Əmin Riyahi tərəfindən Tehranda farsca işıq üzü görmüşdür. Digər iki risalə isə hələ də əlyazma şəklində olub ad verilməmişdir. Bunlardan biri təsəvvüf ədəbindən, digəri isə kainatın insanın əmrinə tabe olub ona xidmət etməsindən bəhs edir. Tərcümə edərək sizlərə təqdim etdiyimiz bu üç əsərə Yusif Həmədaninin əxlaq və əhvalından bəhs edən "**Məqaməti-Yusif Həmədani**" adlı fars dilindəki risalə də əlavə olunaraq Həmədaninin şəxsiyyətini əks etdirəcək bir məcmuə halında azərbaycanlı oxuculara təqdim edilir. Əsərin elm və irfan dünyamıza yeni bir işıq saçması ümidi ilə...

## *XACƏ YUSİF HƏMƏDANİ VƏ “RÜTBƏTÜL-HƏYAT”*

Alimlər, mütəfəkkirlər, şairlər və yazıçılar on iki əsr boyunca Şərq dillərində bəzi əsərlər yazıb yaratmışlar. Düşüncələrdən süzülüb gələrək ağ bəyazlara köçürülən bu əsərlərin hal-hazırda az hissəsi əlimizdə mövcuddur.

Şərqin sənətkarları, elm xadimləri öz zəmanələrində insan beyinlərini idarə etməyi, onları istiqamətləndirməyi bacarırdılar. Onların əsərləri Çindən ta Misirə, İstanbuldan Hind dənizi sahillərinə qədər əldən-ələ gəzirdi. Bu gün isə onların yadigarları hadisələr burulğanında silinib getmiş, laqeydlik tozu üzərlərinə çökmüşdür. Onların fikir və ideyalarının onsuz da az tapılan nümunələri, dünya kitabxanalarının künc-bucaqlarında məcmuələrin arasında, dostlardan və doğma diyardan uzaqda, unutqanlıq zindanlarında itib gedir.

Bu nəhənglərdən və zəmanəsinin məşhurlarından biri də arif, alim, ədib və mahir qələm sahibi **Ustad Xacə Yusif Həmədanidir.** O, Nəqşibəndiyyə təriqətinin təməllərini atan böyük pir və Orta Asiya ilə Anadolu təsəvvüfünün təməlini qoyanlardan hesab olu-

nur. Yusif Həmədani öz dövründə və ondan sonrakı üç əsr boyunca şöhrəti yaddaşlara həkk olan, ancaq bundan sonra adı və əsərləri tarixin səhifələrinə düşən bir şəxsiyyətdir. Onun tərcümeyi-halına təfsilatlı şəkildə sonuncu dəfə Caminin "**Nəfahatul-üns**" əsərində rast gəlmək mümkündür. "**Həbibüs-Siyər**" və "**Rəşaxati-aynul-həyat**" əsərlərində onun həyatı barəsində məlumatlar olsa da belə məlum olur ki, onlar da Caminin əsərinə istinad etmişlər. Həqiqət isə bundan ibarətdir ki, h. IX (XV) əsrin sonuna qədər Xacə Yusif Həmədani şöhrətin zirvəsində olmuşdur.

X (XVI) əsr və daha sonralar həmin bölgədə cəmiyyətin maraq dairəsi və düşüncə sistemi xeyli dəyişikliyə məruz qalmışdır. Əvvəlki böyüklərin şöhrəti və əsərlərinin dəyəri müxtəlif səbəblərlə əlaqəli artır və azalırdı. Xacə Yusif Həmədani isə vəfat etmiş tarixi şəxsiyyətlərdən biri kimi yad olunur və adı Şimal-şərqi İrandakı (Orta Asiya) Xacəgan və Nəqşibəndiyyə müridlərinin məclislərində yad edilirdi. Bundan sonra İran ədəbiyyatında adı qeyd olunsa da bu, təriqətdə Həmədaniyə isnad edilən Sənai Qəznəvinin adı ilə bağlıdır.

Xacə Yusif Həmədani, müasirləri olan İmam Məhəmməd Qəzali, Şəhristani və Əbu Mənsur Abbadi kimi tarixi şəxsiyyətlər kimi şöhrət halqası quraraq, incə mənalı, isti və qəlbi riqqətə gətirən söhbətləri ilə seçilərdi. Beləcə üstün keyfiyyətə malik şəxsiyyəti, elm və irfanı sayəsində böyük şöhrət tapmışdı. Onun əs-

rarəngiz vəz məclislərindən bir xatirə kimi İran ədəbiyyatı və tarixinə gözəl bir əfsanə olaraq düşən İbn Səqqa hekayətidir. Biz bu barədə irəlidə söhbət açacağıq.

Yusif Həmədani mövqeyi və şəxsiyyəti etibarı ilə müasirləri arasında ən çox Məhəmməd Qəzali ilə müqayisə olunur. Qəzali Nişaburdakı məşhur **Nizamiyyə** mədrəsəsinin sayılıb-seçilən ustadlarından, Həmədani isə Bağdad **Nizamiyyə** mədrəsəsinin yetişdirdiyi dahilərdən idi. Hər ikisi də şəriətdən başlamış, təriqətə qədər uzun bir yol qət etmiş, şəriətlə təriqəti uzlaşdırmağa çalışmışlar. Lakin aralarında yeganə fərq – Qəzalinin daha çox əsər qələmə alması və bunun sayəsində adını əbədiləşdirib tarixin səhifələrinə yazması idi. Lakin Xacə Həmədani mədrəsədən təkkəyə yol alan və ömrünü daha çox mürid yetişdirməklə keçirən hal əhli[1] bir insan idi. Onun yazılı əsərlərinin çox olmamasının da yeganə səbəbi budur. Digər tərəfdən isə onun təkkəsinə "Xorasanın Kəbəsi" deyərdilər. Şimal-şərqi İrandakı Nəqşbəndi təriqətinin (Orta Asiya) Anadoludakı Əhməd Yəsəvi ilə bağlı pirlərin əmələ gəlməsi bilavasitə Xacə Yusif şəxsiyyətinin təsirini açıq-aşkar büruzə verir.

[1] Orijinal ifadə – gönül ehli

## *USTAD XACƏ YUSİF HƏMƏDANİNİN HƏYATI*

Xacə Yusif Həmədani haqqında çox qədim və etibar etdiyimiz məlumatlara Səmaninin "Əl-ənsab" adlı əsərində rast gəlinir. Eyni məlumatlar bəzi əlavələrlə birlikdə İbn Xəlliqanın "Vəfayatul-əyan" adlı əsərində də qeyd olunmuşdur. Səmani Mərv şəhərində Xacə Həmədaninin dərgahında onunla şəxsən görüşmüş, hədis dinləmiş və ondan nəql etdiyi iyirmi cüzdən daha çox hədisi öz əli ilə qələmə almışdı. İbn Əsakir də "Ərbəinat" adlı əsərində, 531-ci ildə (1136 m.) Mərvdə onun söhbəti ilə şərəfləndiyini qeyd edir.

Xacə Yusif Həmədaninin əsrinə yaxın mənbələrə istinadən adı və nəsəbi belədir: İmam Əbu Yaqub Yusif ibn Yusif ibn Hüseyn ibn Vəhrə Buzənəcirdi Həmədani.

"Təzkirəi-Dövlətşah"da Sənai haqqında sözü gedən məlumatlarda onun adı səhvən Əbu Yusif adı ilə zikr edilmiş və hətta ondan sonra gələn bütün təzkirələrdə bu yanlışlıq təkrarlanaraq bugünkü tarixçilərin əsərlərinə belə sirayət etmişdir. Yazılı mənbələrin verdiyi məlumata əsasən Xacə Yusif Həmədani hicri 440, yaxud